**Amil Kamil oğlu Əzimli** [104]

# XX ƏSR MAARİFÇİLƏRİ QADIN HÜQUQSUZLUĞU HAQQINDA
## (Sabir və Möcüzün yaradıcılığı əsasında)

**Giriş**. XX əsrdə Azərbaycan ədəbiyyatında tənqidi realizmin inkişafı ədiblərin cəmiyyətdəki sosial problemləri öz əsərlərində işıqlandırmasına, həlli yollarını axtarmasına şərait yaratdı. Satirik şerin yaranmasından sonra bu proses daha da sürətləndi. Ədiblərin toxunduğu problemlərdən biri də Azərbaycan qadınının taleyi idi. Cəmiyyətdə qadın hüquqlarının tapdanması ziyalıları narahat edirdi. M.F.Axundzadə və H.Zərdabi ilə başlayan bu prosesi C.Məmmədquluzadə, M.Ş.Vazeh, Kazımbəy, M.Ə.Sabir və M.Ə.Möcüz davam etdirdilər. İlk olaraq M.F.Axundzadənin dramaturji əsərlərində toxunulan şərq qadını məsələsi C.Məmmədquluzadənin yaradıcılığında da mühüm yer tutur. O "Şərq qadını" jurnalının ildönümü münasibətilə qələmə aldığı "Köhnə dərdim" məqaləsində yazır: "Bütün ömrümdə vurduğum qələmin çox hissəsi Şərq qadını məsələsi üstünə vurulub. Şərq qadınının dərdini mən hamıdan artıq anlaya bilərəm. O mənim köhnə dərdimdir..." [7, s. 10]

**M.Ə.Sabir və M.Möcüz satiralarında qadın hüquqsuzluğunun tənqidi.**

Azərbaycan ədəbiyyatında qadın hüquqsuzluğu haqqında yazıb-yaratmış sənətkarların önəmli bir hissəsi satirik ədəbiyyatın nümayəndələridir. M.Ə.Sabir və M.Möcüz kimi Azərbaycan ədəbiyyatının bir sıra görkəmli satirik nümayəndələri bu mübarizəyə qoşulmuşdular. Onların həmin əsərlərinin dil və üslub xüsusiyyətləri təlqin etmək istədikləri fikirlərin daha təsirli olmasına yardım edirdi. Bu barədə Möcüz araşdırıcısı Fərman Xəlilovun fikirlərinə diqqət yetirək: "M.Möcüz canlı müşahidələri əsasında mənsub olduğu xalqı çox gözəl tanıyırdı. Buna görə də onun əsərlərində xalq həyatı, xalq mənəviyyatı bütün incəlikləri ilə öz realist əksini tapmışdır" [10, s. 176] Sabirin görkəmli tədqiqatçısı Ə.Mirəhmədov öz araşdırmasında Sabir və xalq mövzusundan bəhs edərkən yazır: "Sabirin realist poeziyasında xalq şairanə bədii obrazdır. Bu elə bir aparıcı xətdir ki, şairin onlarca əsərindən mərkəzi bir xətt kimi keçərək, 2 digər xətlərin də istiqamətini təyin edir" [2, s. 134].

Dövrün problemlərini işıqlandıran Möcüz və Sabir, qeyd etdiyimiz kimi, qadın hüquqsuzluğu probleminə xüsusi toxunmuşlar. Görkəmli sənətkarların məqsədi qadınları dövrün əsas problemi olan savadsızlıqdan qurtarmaq idi. Sabirin fikrincə savadlı olmadan gözəl ana olmaq mümkün deyil, gözəl ana olmadan da gözəl cəmiyyət ola bilməz. Deməli, gözəl cəmiyyətin təməlini qadın qoyur: *Həqiqi validənin ən şərəfli bir bəzəyi, – Ədəbli, uslu çocuqdur, təcəmmülat deyil* [8, s. 85].

Şair bu beytdə qadının bəzək əşyaları tanınan "təcəmmülatı" deyil, ədəbli və ağıllı uşaq ("uslu çocuq") sahibi olmanı qadının zinəti sayır. Əsl zinətin mərifətli və tərbiyəli övlad yetişdirmək olduğunu bildirir: *O madərin ki, yox övladə hüsni-tərbiyəsi, Səzayi-məkrəməti-nami-validat deyil* [8, s. 85].

Göründüyü kimi, şairə görə, bir ananın övladının tərbiyəsi yoxdursa, deməli, o, ləyaqətli, tərifəlayiq ana adına layiq deyil. Çünki ananın əsəri övladıdır. Bir rəssamın bacarığı onun çəkdiyi əsəri ilə bilinirsə, bir ananın da bacarığı onun övladının tərbiyəsi ilə ölçülür. Daha sonra şair əsl zinətin nə olduğunu açıqlayır: *Həyata layiq olan ziynət elm gövhəridir, Ki, böylə bir dirilik qabili-məmat deyil*. [8, s. 85].

Şair yuxarıdakı beytdə elmin "qabili-məmat" – ölümlü olmadığını bildirərək, insanları elmə, təhsilə dəvət edir.

Sabir məktəbinin görkəmli nümayəndəsi, "Molla Nəsrəddin"çi şair kimi tanınan satirik Mirzəli Möcüz Cənubi Azərbaycan ədəbiyyatının sayılıb-seçilən sairiklərindəndir. Bu barədə Möcüz tədqiqatçısı Sakibə Ələskərova yazır: "M.Ə.Möcüz yaradıcılığı ilə Cənubi Azərbaycan ədəbiyyatında yeni dövr başlanır. C.Məmmədquluzadə və M.Ə.Sabirin Qafqazda gördüyü işi o, İran Azərbaycanında başa çatdırmışdır" [1, s. 9]. Möcüz də "Gərək" adlı satirasında qadının zinətinin nə olduğunu Sabirə yaxın üslubda izah edir:

*Nur-ürfan-ədəb düşməsə övrət üzünə,*
*Analar elm ilə ta verməyə ziynət özünə,*
*Qalar övladımız həsrət mədəniyyət üzünə.*
*Möcüzün fikri budur: fikr edə millət də gərək*. [9, s. 169].

Burada şair qadın üçün əsas hesab etdiyi üç keyfiyyətə diqqət çəkir; nur-insanın qəlbinin təmizliyindən xəbər verir. Qəlbi təmiz olan kəsin üzündən nur əksik olmaz. "Ürfan" deyərkən şair bilikli, hikmətli, Rəbbini tanıyan insanı nəzərdə tutur. Dünyagörüşlü, düşüncəli qadın daim həyatda doğru addımlar atar, öz övladlarına da nümunə olar. "Ədəb" əxlaq, nəzakət qaydalarının ümumi adıdır. Nəinki qadınlarda, kişilərdə də ən vacib keyfiyyətlərdəndir. Şairə görə, bu üç xüsusiyyətlə qadın zinətlənməzsə, övladları mədəniyyətdən uzaq düşər. Ona görə də, şair qadınların təhsil almasının faydalarını daim göstərmişdir. Çünki şairə görə, qadınların əzilməsinin bir səbəbi də onların ailə başçısı olmadıqda digərlərinə möhtac olmasıdır. Buna örnək olaraq "Ey qız" adlı satirik şerini göstərə bilərik. "Şairin müraciət etdiyi qızın atası ölmüşdür. Bu yoxsul qızın savadı və peşəsi yoxdur. Bəs, onu həyatda nə gözləyir? Onun müqəddəratı necə olacaqdır? Bir neçə misrada Möcüz kimsəsiz, yoxsul bir qızın acı həyat yolunu ümumi cizgilərdə, məharətlə canlandıra bilmişdir [4, s. 46].

*Zənn etmə qəmü qüssədən azad olacaqsan,*
*İqbal üzünü güldürəcək, şad olacaqsan,*
*Nə qaziyə, nə haciyə arvad olacaqsan*
*Ki, kef çəkəsən qəsrdə şamü səhər, ey qız!* [10, s. 281].

---

[104] Bakı Avrasiya Universitetinin magistrantı. amilezimi@gmail.com

Müəllif bu satirada həmçinin dövrün din adamlarının nüfuzunun və imkanının çox olduğunu, kimsə zəngin həyat arzulayırsa, ya hacıya, ya da qaziyə ərə getməli olduğunu deyir. Burada şair insanlara zülm edərək əvəzində qəsrlərdə, saraylarda yaşayan dırnaqarası ruhaniləri tənqid etmişdir:

*Dövlətlini dövlətli alar, yoxsulu yoxsul,*
*Örtər hacı qızlarının eyblərini pul,*
*Nə səndə hünər var, nə bir ayinə, nə ustul*
*Nə fərş, nə səccadə nə simü nə zər, ey qız.* [10, s. 281].

Gördüyümüz kimi, tərbiyəli övladın qadın üçün əsl zinət olduğunu bildirən şairlər qızların cahil qalmaması, zamanla ayaqlaşması və başqasından asılı olmamasının yolları barədə düşünmüşlər. Amma təəssüflər olsun ki, həmin dövrün cəmiyyətində qadınların təhsil alması hələ də böyük bir əngəl ilə qarşılaşırdı. Zamanın tələbləri və cəmiyyətin stereotipləri qadınların yalnız ev işləri və ailə tərbiyəsi ilə məhdudlaşan bir rol oynamasını tələb edirdi. Belə bir mühitdə qadınların təhsil alması, onların hüquqlarının qorunması və cəmiyyətdə bərabər hüquqlara sahib olmaları bir çox hallarda qəbul edilmirdi. O zaman valideynlər nəinki qızların, həmçinin oğlanların da təhsil almasına diqqət yetirmirdilər. M.Möcüz bu vəziyyətə qarşı maarifçi kimi etiraz səsini ucaltmışdı. XX əsrin 30-cu illərinin əvvəllərində Şəbüstərdə – doğulub-böyüdüyü yerdə qız məktəbinin açılması barədə təbliğat aparmış, "Oxudun qızları" şerində bu məktəbin açılışına həm zərurət, həm də imkan yarandığını bildirmişdir: *Girəm axund altı ay iləri, Buyururdu: Oxutmayın Həcəri; Qızın hər kəs qələm verə əlinə, Tüpürün saçına və səqqəlinə!* [3, s. 328].

Camaat içərisində bu məsələyə xeyli maraq oyatmış, Şəbustərin irəligörüşlü insanlarından olan Heydərzadə Mahmud Bəhrami, Mircəfər Sadatyan, Əli bəy Yəhyazadə Cəmi, Mehdi Cəfəri, Abdulla İrani kimi şəxsiyyətlərin fəal iştirakı sayəsində ilk dəfə qız məktəbi açmışdır. Amma bu məktəb qeyri-rəsmi fəaliyyət göstərmişdi [11, s. 12].

"1931-ci ilin Maarif idarəsi Şəbüstərdə-qeyri rəsmi şəkildə fəaliyyət göstərən qız məktəbinin 6 sinifli bir məktəb kimi rəsmləşdirilməsinə qərar vermiş, xanım Siddiqə Müdərrisi məktəbə müdir və müəllim təyin etmişdir. Məktəb əvvəlcə "Şəbüstər Dövlət Qız məktəbi", bir qədər sonra "Şəbüstər Qızlar məktəbi", daha sonra "İran Qızları" və nəhayət, "Pure – ənduxt" adlandırılmışdır" [11, s. 12].

Gördüyümüz kimi, qadınların təhsil alması üçün mübarizə aparan satirik maarifin təməlinin ailədən başladığı qənaətində idi. Ona görə də, daim şeirlərində valideynlər mövzusuna xüsusi yer ayırmışdır. Möcüz satirik şeirlərində Sabir üslubuna uyğun olaraq mənfi tipi öz dili ilə danışdırmışdır. Satiralarının birində atası ölən qıza qarşı münasibəti belə ifşa edir:

*Tərk etdi cahani atan, ey mahi-lətafət,*
*Öyrətdi nə sənət sənə, nə elmü kitabət,*
*Ondan sənə miras fəqət qaldı cəhalət*
*Oldun qəmi-əyyam ilə xunincigər, ey qız!* [10, s. 281].

Burada şair satirik və kəskin bir dillə dövrün qadın obrazını yaradır. Atası ölən qız cəmiyyətdən təcrid olunur və başqalarına möhtac olur. Bu taleyin səbəbi isə, atasının zamanında onun təhsil almasına icazə verməməsi və oxutmamış olmasıdır. Şair bu acınacaqlı mənzərəni diqqətə çatdıraraq, qadının təhsil hüququnun məhdudlaşdırılmasının nə qədər faciəli nəticələr doğurduğunu göstərir. Təhsil alma imkanı verilməyən qadın nəinki cəmiyyətdə müstəqil insan statusu qazana bilmir, ümumiyyətlə, təcrid edilərək ətrafındakı insanların mənfi təsirinə məruz qalır. Digər şeirində şair yenidən bu mənfi tipi öz dili ilə danışdıraraq, onu cəmiyyətin müəyyən etdiyi sərhədlər daxilindəki rolunu dərk etməyə məcbur edir. Bu, qadının məhdudlaşdırılmış dünyasında öz hüquqlarını və azadlığını qazanmağa çalışan bir obrazın düşdüyü acınacaqlı durumunu göstərir. Şairin bu dili üslubu həm dövrün reallıqlarını əks etdirir, həm də cəmiyyətdəki ədalətsizliyin qarşısında sarsılmaz bir tənqidi duruşu nümayiş etdirir. Möcüz:

*Tələbi-elm edib fərz peyəmbər dişiyə,*
*Lakin axundlar atıbdır bu hədisi eşiyə,*
*Nameyi gəlsə ərindən, oxuda yad kişiyə,*
*Verə naməhrəm ilə baş-başa xəlvətdə, gərək,* [9, s. 169].

– deyərək İslam peyğəmbərinin bir hədisini xatırladır, axundların bu hədisi öz nəfslərinə uyğun yozduğunu qınayır. Şair hər şeydən əvvəl, qadının təhsil almasının öz güzəranı üçün, gündəlik həyatı üçün lazımlı olduğunu vurğulayır. Qadınları oxumağa qoymayaraq onları günahdan çəkindirən insanları onları başqa harama – naməhrəm ilə xəlvətdə qalmağa vadar edirlər. Beləliklə, onlar özləri özlərini aldatmış olurlar: *Lakin ağa buyurur ki, qala cahil arvad, Sirri əğyarə deyə vəxti-kitabətdə, gərək* [9, s. 169].

Ona görə də, Mirzəli Möcüz qadınları mübarizə meydanına atılmağa, zəncirləri qırıb cahil qalmamağa çağırırdı. Öz millətinin qadınlarının ağır durumunu görüb təəssüf hissi keçirən şair bu faciəvi vəziyyətdən yeganə çıxış yolunu elmdə, maarifdə görür: *Özgəsi yazsa kağızın, bacı, Sirrüvü faş edər, qəmin artar* [13, s. 62].

Möcüz bəzi şeirlərində insanlara rəğbətlə yanaşaraq onların həyatını və problemlərini anlamağa çalışmışdır. Şair insan ruhunun incəliklərini və cəmiyyətin yaratdığı çətinlikləri özündə əks etdirən şeirlərində, adətən, insanın daxili mübarizələrinə, üzüntülərinə və ümidlərinə xüsusi diqqət yetirir. Onun insanın sosial və emosional vəziyyətinə olan bu baxışı oxucunun özünü və ətrafındakı dünyanı daha dərindən hiss etməsinə kömək edir. Şairin bu yanaşması onun yalnız gözlə görülən problemləri deyil, həm də insanların qəlbindəki acıları və arzuları ön plana çıxarmasına imkan verir. Əziz Mirəhmədov bunu belə izah edir: "Şair öz məsləhətlərini bir vaiz, bir nəsihətçi kimi deyil, səmimi və müdrik bir ata və qardaş kimi deyir" [12, s. 756]. Bu yanaşma Möcüzün şeirindəki təbii üslubu əks etdirir. O, insanları təbliğ etməyə, onlara dərs verməyə çalışmır; əksinə, bir dost, ata və ya qardaş kimi,

onların həyat təcrübələrini başa düşərək və onlarla səmimiyyət quraraq məsləhətlər verir. Bu üslub oxucuların özlərini şairə daha yaxın hiss etmələrinə və onun sözlərindən daha çox təsirlənmələrinə imkan yaradır. Möcüzün şeirlərindəki bu müdrik və səmimi yanaşma tərzi onun yalnız şair deyil, həm də insanpərvər bir şəxsiyyət olduğunu göstərir. F.Xəlilov öz araşdırmasında Mirzə Əli Möcüzün qadın hüquqsuzluğu mövzusunda yazdığı şeirlərinin qəhrəmanları haqqında yazır: "Möcüzün həmin mövzuda yazdığı şeirlərinin əsas qəhrəmanı tükəzlər avam, sadəlövh, öz ailəsi və məişəti ilə məşğul olan Cənubi Azərbaycan qadınlarıdır. Onlar evdə hüquqsuz, ərdən asılı bir vəziyyətdədirlər. Ərlə davaları pul və çörək üstündədir. Dindar və cahildirlər. Məktəb üzü görməyiblər. Ərlərini və övladlarını sevirlər. Geyimləri, düşüncələri, danışıq tərzləri, adət-ənənələrə sadiqliyi onlarım asas xarakterik xüsusiyyətləridir. Yeniliyi dərk və qəbul etməkdə mühafizəkardırlar. İctimai fikirdən məhrumdurlar. Bir sözlə, bir-birinə çox oxşayırlar – eyniləşən insanlardırlar" [6, s. 180].

Göründüyü kimi, müəllif dövrün qısa xülasəsini vermişdir. Cəmiyyətin dəyişməsi üçün köklü islahatlar aparılmalıdır. Buna gedən yol da bilavasitə maarifdən keçirdi. M.Möcüz əsərlərinin qəhrəmanı ilə böyük müasiri M.Ə.Sabirin yaratdığı qəhrəmanlar oxşarlıq təşkil edir; kitab və dəftər üzü açmayan qadınların savadsızlıqları onları cəhalətə sürükləyir. Yeni evlənən cahil qızın düşdüyü vəziyyəti Sabir satirik dillə belə ifadə edir: *Dəftərin andıra qalmış sözünü, Eşidib görməmiş idik üzünü.* [5, s. 212].

Oxuyub-yaza bilməyən, buna görə kitab və dəftərə nifrət edən qızların – gördükləri yalnız inək sağmaq, yun daramaq və paltar tikmək olan bu obrazların dünyagörüşü dövrün acı və qəddar sosial vəziyyətini əks etdirir. Bu obrazlar cəmiyyətin qadınlara verdiyi məhdud imkanları və onların təhsil hüququndan məhrum edilməsini simvollaşdırır. Şair və yazıçılar bu cür obrazlar vasitəsilə qadınların həyatda qarşılaşdıqları çətinlikləri, onların təhsil və inkişaf imkanlarının olmamasını açıq şəkildə tənqid edərək cəmiyyətdə mövcud olan ədalətsizliklərə diqqət çəkirlər. Beləliklə, bu hüquqsuz və hüquqsuzluğunu dərk etməyən obrazlar yalnız müəyyən dövrün sosial reallığını göstərmir, həm də qadınların hüquqlarının pozulmasının, savadsızlığın və təhsilsizliyin yaratdığı faciələri ortaya qoyur. Bu həm də dövrün cəmiyyətinin düşüncə tərzinin və qadınlara münasibətinin bir təzahürüdür.

Dövrün qadın hüquqsuzluğu ilə bağlı böyük problemlərdən biri də qadınların həm istəmədən, həm də erkən yaşda evləndirilmələri idi. Bu günümüzdə də davam edən eyni problem XIX- XX əsrlərdə daha qabarıq nəzərə çarpır. Dövrün maarifçiləri də bu kimi hallara qarşı daim mübarizə aparırdılar. M.Ə.Sabir dəfələrlə öz əsərlərində bu acı həqiqəti ifşa etmişdi. Belə ki, cəmiyyətdə qadının sosial gücü zəif olduğundan daim onu əzməyə, qızları müəyyən yaşa çatan kimi tez ərə verməyə çalışmışlar. Bəzən ərə vermək istədikləri kişilər çox yaşlı olurdu. Bu şəkildə qurban verilən qızın dilindən düşdüyü durumu Sabir belə ifadə edir: *Ərdodu, qabandı, qoyma, gəldi! Didarı yamandı, qoyma, gəldi!* [5, s. 182].

Üzünü görmədiyi insanla evlənməyə məcbur edilən qızlar köməksiz qalır, cəmiyyətdən yardım ala bilmirdilər. Təəssüflər olsun ki, bu hal bu gün də bəzi bölgələrdə davam edir. Görünən budur ki, satiriklərimiz elə əsərlər yaradıb ki və elə problemlərə toxunublar ki, o problemlər bu gün də aktualdır. Sabir satirik şeirlərinin birində arsız qoca obrazını canlandırır. Nəvəsi yaşında qız ilə evlənən qoca kişi bu əməli ilə fəxr edir: *İsticə ləvaşım var, Hər gecəyə aşım var, Demə, dədəm yerdəsən, Ancaq əlli yaşım var!* [5, s. 187].

Bu misralarda şair ləvaşın və aşın simvolik mənalarına istinad edərək, həyatın müxtəlif mərhələlərində insanın qarşılaşdığı çətinliklərə və əxlaqi dəyərlərə diqqət çəkir. "İsticə ləvaşım var, Hər gecəyə aşım var" ifadələri həyatın sadə, bəsit tərəflərini və maddi ehtiyacları təmsil edir. Bu cür ifadələr, bir tərəfdən, məişət dəyərlərinin və gündəlik həyatda qarşılaşılan çətinliklərin əksidir, digər tərəfdən, şairin yaşadığı sosial mühitin gerçəkliyini ortaya qoyur. "Demə, dədəm yerdəsən, Ancaq əlli yaşım var!" misralarında isə şair, yaşın gətirdiyi "problemlərə" və dövrün verdiyi əxlaqi təzyiqlərə qarşı bir etiraz nümayiş etdirir. Burada, kiçik yaşlı qıza göz dikən kişi utanmadan öz əməllərini müdafiə edir. Bu kimi şeirləri ilə Sabir cəmiyyətdəki standartları, əxlaqsız davranışları və sosial ədalətsizliyi tənqid edir. Şair belə şəxslərin öz əməllərini necə haqlı çıxarmağa çalışdığına və bu cür əxlaqi təhriflərin cəmiyyətdə necə təqdir olunduğuna işarə edir. Bu misralar vasitəsilə dövrün əxlaq problemləri və ictimai ədalətsizliyinə qarşı kəskin bir tənqid mövcuddur. Ümumiyyətlə, Sabirin qadın obrazları – Xanbacılar, Fatma Tükəzbanlar, Fatmanisələr cəmiyyətin qurbanı olan qadınlardır. Öz əməlləri deyil, başqalarının əməlləri ucbatından bədbəxt olan bu qadınlar zülm içində yaşamış, həyatları zillət içərisində keçirmişlər.

**Nəticə.** XX əsr maarifçiləri öz əsərlərində qadın hüquqsuzluğunu tənqidini əsas mövzulardan birinə çevirmiş, cəmiyyətin sosial və mədəni inkişafının yolunun qadınların təhsil almasının və ictimai həyatda aktiv iştirakının vacibliyindən keçdiyini vurğulamışlar. Sabir və Möcüz satirik şeirlərində qadınların cəmiyyətin cahil düşüncələri ucbatından əziyyət çəkdiyini göstərirdilər. Maarifçilərin bu fikirləri dövrün sosial problemlərini əks etdirməklə yanaşı, gələcək nəsillərə də ismarış vermişdir. Onların əsərləri cəmiyyətin dəyişməsi, inkişafı və qadınların hüquqlarının tanınmasına mühüm təsir göstərmişdir. Bu baxımdan, XX əsr maarifçilərinin yaradıcılığı yalnız tarixi bir mərhələ deyil, həm də sosial dəyişikliklərə çağırış kimi qiymətləndirilə bilər.

## İstifadə edilmiş ədəbiyyat


1) Ələskərova S. Mirzə Əli Möcüz Şəbustəri. Bakı: ADPU. 2002. 182 s.
2) Mirəhmədov Ə. Sabir. Bakı: Azərbaycan EA-nın nəşriyyatı, 1958, 444 s.
3) Möcüz M. Seçilmiş əsərləri. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı,1954, 357 s.
4) Ömərova L. Mirzə Əli Möcüz. Bakı: Azərnəşr, 1958, 84 s.
5) Sabir M.Ə. Hophopnamə. İki cilddə, I cild. Bakı: Şərq-Qərb, 2004, 480 s.
6) Xəlilov F. Cənubi Azərbaycan şairi Mirzə Əli Möcüz. Bakı: Elm və təhsil, 2010, 420 s.
7) Məmmədquluzadə C. Köhnə dərdim "Şərq qadını" jurnalı, Bakı, 1924, № 10
8) Sabir M.Ə. Hophopnamə. İki cilddə. II cild. Bakı: Şərq-Qərb, 2004, 384 s.
9) Möcüz M. Şeirlər. Toplayan və çapa hazırlayan: Q.Məmmədli. Bakı: Azərnəşr, 1948, 254 s.
10) Möcüz M. Seçilmiş əsərləri. Toplayan və tərtib edən: Q.Məmmədli. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1954, 358 s.
11) Möcüz M. Biblioqrafiya. Bakı: Nurlan, 2007, 148 s.
12) Mirəhmədov Ə. Mirzə Əli Möcüz / Azərbaycan ədəbiyyatı tarixi, Üç cilddə, II cild. Bakı: Azərbaycan EA Nəşriyyatı, 1960, 738-762 s.

13) Möcüz M.Ə. Seçilmiş əsərləri. Bakı, Avrasiya press, 2006, 216 s.
**Ключевые слова:** М.Э.Сабир, М.Э.Мөджюз, нарушение прав женщин, образование, сатира, ранний брак
**Keywords:** M.Ə. Sabir, M.Ə. Möcüz, women's rights violations, education, satire, early marriage

**Резюме**

В статье рассматривается проблема нарушения прав женщин в произведениях выдающихся азербайджанских интеллектуалов XX века, в частности, в литературном наследии Сабира и Мөджюза. В работе проводится сравнительный анализ изображения социального положения женщин и их прав в произведениях этих двух поэтов. Статья исследует сходства и различия в подходах Сабира и Мөджюза к проблеме прав женщин, подчеркивая значимость интеллектуальной литературы в продвижении прав женщин в азербайджанском обществе. В заключении подчеркивается положительное влияние повышения осведомленности о правах женщин через литературу на социальные изменения и улучшение положения женщин в обществе.

**Summary**

This article examines the issue of women's rights violations in the works of prominent 20th-century Azerbaijani intellectuals, particularly focusing on the literary creations of Sabir and Möcüz. The paper compares and contrasts the portrayals of women's social status and their rights in the works of these two poets. The article explores the similarities and differences in the approach of Sabir and Möcüz toward women's rights and emphasizes the significance of intellectual literature in advocating for women's rights in Azerbaijani society. The conclusion underscores the positive impact of raising awareness of women's rights through literature on social change and improving women's status in society.

**Elmi rəhbər:** prof. Səadət Şıxıyeva